Xalq qəzeti 2021.- 8 yanvar.- S.10.

# Ötən il sosial müdafiə sahəsində mühüm irəliləyişlər əldə edilib

***Prezident İlham Əliyevin uğurlu sosial siyasəti vətəndaş rifahının təminatına, xüsusilə əhalinin həssas qruplarının həyat şəraitlərinin yaxşılaşdırılmasına xidmət edir. 30 ilə yaxın işğal altında qalmış ərazilərimizin azad edilməsi kimi möhtəşəm zəfərimizlə əlamətdar olan 2020 – ci ildə də sosial müdafiə sahəsində mühüm irəliləyişlərə nail olunub, bir sıra hüquqi aktlar qəbul edilib. Ümumilikdə qəbul olunan yeni normativ hüquqi aktlar əhalinin sosial müdafiəsinin yaxşılaşdırılması, həssas qruplara dövlət qayğısının artırılması istiqamətində növbəti əhəmiyyətli addımlardır. Eyni zamanda, bu sənədlər sosial təminat sisteminin optimallaşdırılmasına, pensiya təminatı sistemində sosial sığorta prinsiplərinin gücləndirilməsinə, sosial ödənişlərin təyinatlarının elektron icrasının sürətləndirilməsinə xidmət edir.***




İşğaldan azad edilmiş ərazilərimizin bərpası və yenidən qurulması işləri çərçivəsində həmin bölgələrdə müasir sosial infrastruktur qurulacaq, DOST mərkəzləri, sosial xidmət və reabilitasiya müəssisələri yaradılacaq, sosial müdafiə və aktiv məşğulluq proqramları geniş vüsət alacaq.

Dövlət başçısının xüsusi diqqəti və qayğısı nəticəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən postmüharibə dövründə 1800 – dək şəhid və yaralanmış hərbçi ailəsi, müharibə iştirakçısı, erməni terrorundan zərər çəkən şəxs aktiv məşğulluq tədbirlərinə cəlb edilib. Onlardan 1540 şəxs (o cümlədən 860 şəhid ailəsi üzvü, 420 yaralanmış qazi və ya ailə üzvü) növbədənkənar özünüməşğulluq proqramına cəlb edilib. Onlara mal və materiallar, avadanlıqlar formasında aktivlər verilməklə, kiçik ailə müəssisələri yaradılır ki, bu da həmin ailələrin kiçik binzesə çıxış imkanlarına malik olmalarına imkan verir. Bundan başqa, erməni terroru nəticəsində evləri dağılmış 30 – dək şəxs üçün də özünüməşğulluq proqramı çərçivəsində aktivlər verilərək kiçik müəssisələr qurulub.

Postmüharibə dövründə agentlik Vətən Müharibəsi şəhidlərinin və yaralanmış hərbçilərin ailə üzvlərindən, müharibə iştirakçıları və erməni terrorundan zərər çəkən şəxslərdən 219 nəfərini istəklərinə uyğun olaraq haqqı ödənilən ictimai işlərə cəlb edib, 31 nəfəri isə əməkhaqqının birgə maliyyələşdirilməsi proqramı üzrə işlə təmin olunub.

Prezident İlham Əliyevin imzaladığı yeni sərəncam və fərmanlar dövlət başçısının şəhid ailələrinə, müharibə və 1990 – cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərə, Milli qəhrəmanlara, İkinci Dünya müharibəsi iştirakçılarına, əlilliyi olan şəxslərə xüsusi qayğısının növbəti əyani təzahürüdür. Şəhid ailələri və 20 Yanvar şəhidlərinin ailələri, Əfqanıstanda sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olan, itkin düşmüş və məhkəmə qaydasında ölmüş elan edilən hərbi qulluqçuların ailələri üçün Prezidentin təqaüdünün məbləğinin artırılması haqqında imzalanan fərmanlara əsasən, həmin ailələr üçün Prezidentin aylıq təqaüdünün məbləği 66,7 faiz artırılaraq 300 manatdan 500 manata çatdırıldı. Qeyd edək ki, şəhid ailələri və qeyd edilən əlilliyi olan şəxslər Prezidentin təqaüdü ilə yanaşı, aylıq əsasda müavinət və ya pensiya ilə də təmin olunurlar.

Prezident İlham Əliyevin daha bir fərmanı isə müharibə və 1990 – cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərin rifah halının yaxşılaşdırılmasına xidmət edir. Fərmanla bu kateqoriyadan olan şəxslər, həmçinin müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə bərabər tutulanlar (hərbi xidmət vəzifələrini yerinə yetirməklə və Çernobıl AES – də hərbi xidmətlə əlaqədar əlilliyi olan şəxslər) üçün Prezidentin təqaüdünün məbləği orta hesabla 50 faizdən çox artırıldı. Belə ki, bu məbləğlər artırılaraq, I dərəcə əlilliyi olan şəxslər üçün 250 manatdan 400 manata, II dərəcə əlilliyi olan şəxslər üçün 230 manatdan 350 manata, III dərəcə əlilliyi olan şəxslər üçün 210 manatdan 300 manata çatdırıldı.

Dövlət başçısının digər fərmanı ilə Azərbaycanın Milli Qəhrəmanına Prezidentin aylıq təqaüdünün məbləği 20 faiz artırılaraq 1500 manatdan 1800 manata çatdırıldı. İkinci Qarabağ müharibəsində möhtəşəm zəfərimizin qazanılmasına mühüm töhfələr vermiş Vətən Müharibəsi qəhrəmanlarının sosial müdafiəsi də cənab Prezidentin diqqətindədir. Dövlət başçısının imzaladığı yeni fərmanla sosial təminat sistemində yeni təqaüd növü kimi, Vətən Müharibəsi Qəhrəmanı üçün Prezidentin aylıq təqaüdü (2 000 manat) də təsis olundu. İkinci Dünya müharibəsi iştirakçıları üçün Prezidentin aylıq təqaüdü 100 faiz artırılaraq 150 manatdan 300 manata çatdırıldı. Eyni zamanda, bir sıra digər kateqoriyadan olan şəxslərə ödənilən sosial müavinət, təqaüd və pensiya əlavələri də optimallaşdırılmış və artımlar müəyyən edilmişdir. Bütün artımlar 2021-ci il yanvarın 1-dən tətbiq ediləcək.

Qeyd edək ki, Dövlət Sosial Müdafiə Fondu Vətən Müharibəsi şəhidlərindən artıq 900 şəhidin 2100 – dən çox ailə üzvünə müvafiq sosial ödənişlərin təyinatını aparıb və proses davam edir. Təqaüd, pensiya və müavinətlər heç bir müraciət olunmadan, elektron qaydada həyata keçirilir və aparılmış təyinatlar barədə şəhid ailələrinə məlumatlar verilir. Eyni zamanda, nazirlik əməkdaşları tərəfindən şəhid ailələri ilə mütəmadi görüşlər davam edir və təqaüdü almaq üçün bank kartları bir çox şəhid ailələrinə elə bu görüşlər zamanı öz ünvanlarında təqdim edilib.

Prezident İlham Əliyevin uğurlu sosial siyasəti vətəndaş rifahının təminatına, xüsusilə əhalinin həssas qruplarının həyat şəraitlərinin yaxşılaşdırılmasına xidmət edir. Dövlətin diqqət və qayğısı sosial cəhətdən aztəminatlı ailələrə yalnız təqaüd, müavinət, pensiyaların artırılmasında deyil, başqa sahələrdə də özünü göstərir. Bu günlərdə ölkəmizin bölgələrində 60 – dək fərdi yaşayış evi şəhid ailələrinə və ərazi bütövlüyümüzün müdafiəsi ilə əlaqədar əlilliyi olan şəxslərə təqdim edilib. Ötən il 1450 mənzil və fərdi ev şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzil problemini həll edib. Yaxın günlərdə bir sıra bölgələrimizdə də yeni fərdi evlər veriləcək. Ümumilikdə, bu vaxta qədər 10 minə yaxın şəhid ailəsi və Qarabağ müharibəsi ilə əlaqədar əlilliyi olan şəxs evlə təmin olunub. Eyni zamanda, 2020 – ci ildə 400 avtomobilin müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə və onlara bərabər tutulanlara təqdim edilməsi proqramı da tam icra olunub.

Ümumilikdə, pandemiya ilə bağlı məhdidiyyətlərə baxmayaraq, 2020 – ci il üçün nəzərdə tutulan bütün sosial müdafiə və aktiv məşğulluq proqramlarının uğurlu icrası və daha da genişləndirilməsi, sosial ödənişlərin davamlılığı təmin olunub. Əlavə olaraq, pandemiya dövründə sosial dəstək paketi icra edilib. Postmüharibə dövrü üzrə də geniş miqyaslı sosial dəstək tədbirləri həyata keçirilir. Dövlətin diqqətdə saxladığı digər məsələ xüsusi karantin rejiminin sərtləşdirilməsi ilə əlaqədar işsiz və xüsusi karantin rejimində gəlirini itirən qeyri-formal işləyən aztəminatlılara yardım edilməsidir. İlin son gününə qədər yaşayış minimumu həcmində birdəfəlik ödəmə (190 manat) vəsaitlərinin köçürülməsi başa çatdırılıb. Həmin şəxslərə qeydiyyata alınmaq üçün müraciət edərkən qeyd etdikləri telefon nömrəsinə bu barədə SMS göndərilib. SMS-i aldıqdan sonra onlara verilmiş bank kartları vasitəsilə vəsaitlərini müvafiq bankın bankomatlarından əldə edirlər. Xatırladaq ki, 2020 – ci ilin aprel – may aylarında işsiz və xüsusi karantin rejiminə görə gəlirini itirən qeyri – formal işləyən şəxslərdən ibarət aztəminatlı 600 min şəxsə, sonralar sərtləşdirilmiş karantin rejimi tətbiq olunan rayonlar üzrə 3 – cü, 4 – cü və 5 – ci dəfə birdəfəlik ödəmələr verilib. Bu dəfəki ödəniş sayca altıncıdır. Ümumilikdə ötən il 190 manat birdəfəlik ödəmələrin verilməsi üçün 450 milyon manat vəsait sərf olunub.

Dövlət Məşğulluq Agentliyində aktiv məşğulluq tədbirlərinin və rəqəmsal məşğulluğun təşkili, ərazi məşğulluq mərkəzlərinin yenidən qurulması, mərkəzlərin işinin təkmilləşdirilməsi sahələrində 2020 – ci ildə görülən işlər və nəticələri müzakirə edilərkən bildirilib ki, Prezident İlham Əliyevin tapşırığına əsasən, əhalinin məşğulluq imkanlarının və xidmətlərin keyfiyyətinin artırılması, bu xidmətlərdə şəffaflığın, operativliyin və əlçatanlığın təmin edilməsi üçün 2020 – ci ildə məqsədyönlü addımlar atılıb. 2021– ci ildə də məşğulluq sahəsində yeniliklərin tətbiqinin davam edəcəyi, aktiv məşğulluq proqramlarının əhatə dairəsinin daha da genişlənəcəyi bildirilib. Qeyd edilib ki, dövlət başçısının təşəbbüsü ilə agentlik tərəfindən icra olunan və mühüm sosial əhəmiyyəti olan özünüməşğulluq proqramına il ərzində ümumilikdə 12 min şəxs cəlb edilib. 2021– ci il üçün özünüməşğulluq proqramının icra mexanizminin təkmilləşdirilməsi davam etdirilməklə, proqramın əhatə dairəsi daha da genişləndiriləcək. Proqram çərçivəsində həssas əhali qrupları üçün təsərrüfat və müəssisələrin yaradılması nəzərdə tutulan iqtisadi fəaliyyət növlərinin də sırasına yeniləri əlavə olunacaq.

Qeyd edək ki, rəqəmsal məşğulluq agentliyin gələcək fəaliyyətində əsas istiqamət kimi qəbul edilir. Hazırda bütün əmək münasibətlərini, həmçinin məşğulluq məlumatlarını, əmək və məşğulluğa nəzarət, hesabatlılıq və təhlil üzrə funksional istiqamətləri özündə birləşdirəcək "Əmək münasibətləri və məşğulluq" altsistemi hazırlanır. Bu altsistem ölkə üzrə bütün işəgötürənlər üçün funksional bir "ERP" formatında olacaq. Habelə ölkənin "Məşğulluq xəritəsi", "Məşğul şəxslərin reyestri", "BACAR" virtual informasiya resursu, "Elektron əmək birjası və yarmarkası" sistemi, "Monitorinq və səyyar yoxlama sistemi" və "İctimai işlər portalı" da hazırlanır.

İşəgötürənlərin məşğulluq mərkəzlərinə kağız üzərində hesabatlar verməsi mexanizmi 2020 – ci ildə ləğv edilərək elektron müstəvidə qurulub, işsiz şəxslərin elektron qeydiyyatı sistemi və həmin şəxslərə müraciət etmədən e-qaydada qeydiyyata alınmaq imkanı yaradılıb. Onlayn vakansiya bankı formalaşdırılıb, fərdi məşğulluq proqramlarının elektron tərtibatı funksiyası qurulub. Bütün bunlar isə sadəcə texniki tərəqqi deyil, dövlətin inkişaf göstəricisidir.

***Zərifə BƏŞİRQIZI, "Xalq qəzeti"***